

# Nəsibi müqəddəs şəhidlik zirvəsi olan Elçin...

**"Şəhid qanı axmayan torpaqdan Vətən olmaz " deyiblər. 30 il yağı əsarətində olan əzəli yurd yerimiz- Qarabağımızı qanları bahasına azad edən qəhrəman oğullar bir daha bunu sübut etdilər. Ulu torpağın bağrına üç rəngli zəfər bayrağımızı sancıb tarixin yaddaşında iz qoyan belə qəhrəmanlardan biri də şəhid Elçin Qismət oğlu Novruzov oldu.**

Ölümsüzlüyə qovuşan qəhrəman Vətən sevdalısının oddan, alovdan keçən döyüş yolu fədakarlıqla, mərdliklə doludur. Məhz buna görə Elçin cismən aramızda olmasa da, adı dillərdən düşmür. Eləcə qərinələr keçəcək gələcək nəsillər Vətəni sevməyi, doğma torpağı necə qorumağı ondan öyrənəcək. Elçinin 44 günlük haqq savaşımızda Vətən naminə, öz xalqının xoşbəxt gələcəyi üçün göstərdiyi misilsiz şücaət heç vaxt unudulmaz. Azərbaycan var olduqca, o, da yaşayacaq.

Elçin Novruzov 1989-cu ildə Rusiyanın Voronej şəhərində dünyaya gəlib. 1996-2005-ci illərdə Masallı rayon, Hüseynhacılı, 2005-2007-ci illərdə Ə. Məmmədov adına Öncəqala kənd tam orta məktəbində təhsil alıb. 2007-ci ildə Hava Hücumundan Müdafiə qüvvələrinin sıralarında hərbi xidmətdə olub. Vətən müharibəsinə könüllü olaraq qatılan Elçin Novruzov Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Səngərdə yerini alan gündən:" Doğma Azərbaycanımızın müqəddəs bir parçası olan Qarabağımız azad olmamış silahı yerə qoymaram"-deyə and içib. Neçə-neçə döyüşdə yağıya sarsıdıcı zərbələr endirib. Ölümə meydan oxumaqla hər qarış torpaq uğrunda mərdliklə vuruşub. Dığalara qan uduran qəhrəman Vətən oğlu elə müharibə meydanların birində şəhidlik zirvəsinə ucalıb. 16 noyabr 2020-ci ildə Masallı rayononun Hüseynhacılı kəndində dəfn olunub. Şərəfli ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazılan Elçin Novruzov "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqləndiyinə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Bəli, Vətənin daşına, torpağına, yaşadığı yerə ürəkdən sevdalanan Elçin Novruzov yaşının 31-ci ilində müqəddəs bir ömrə sahib oldu. Qana susayan düşməni qanda boğmaqla ulduzlu göylərə ucaldı. Masallı camaatı öz qəhrəman oğlunun xatirəsini əziz tutur, hər yerdə, hər an böyük sevgi və məhəbbətlə onu yad edirlər. 36 yaşa dolduğu gün də masallılar tərəfində iftixarlı keçdi. Sevdalanıb əbədi sinəsinə baş qoyan torpağı ziyarət edən mərasim iştirakçıları şəhid Elçinin məzarına ehtiram əlaməti olaraq güllərdən çələng hördülər. Onu da bildirdilər ki, Vətən, torpaq naminə şərəfli ölümü ilə əbədi olaraq Elçin milyonların ürəyinə köçüb. Onun qısa ömür yolu xalqına, yurduna sonsuz məhəbbət mücəssəməsidir.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı Xəbər .- 2025.- 30 avqust-1 sentyab (№ 154).- S.14.